## Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında Saziş"in (İnstitusional Quruculuğa İkinci Texniki Yardım Krediti) təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLIKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2002-ci il oktyabrın 17-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün kredit haqqında saziş» (İnstitusional Quruculuğa İkinci Texniki Yardım Krediti) təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, **Azərbaycan Respublikasının Hesablama Palatasına**, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci bəndində göstərilən sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasını xəbərdar etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 oktyabr 2002-ci il**
**№ 1079**